**Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Texniki təhlükəsizlik haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 11-ci, 13-cü və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838 (Cild I); 2024, № 3, maddə 247; Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 116-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.0.14-cü maddədə “təhlükə potensiallı” sözləri birinci halda “xüsusi riskli” sözləri ilə, ikinci halda “risk” sözü ilə əvəz edilsin;

1.2. 78-ci maddənin adında, 78.1-ci və 78.2-ci maddələrdə “Təhlükə potensiallı” sözləri “Xüsusi riskli” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** “Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 81 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci maddənin birinci hissəsinin dördüncü abzasına “uçulması,” sözündən sonra “dağılması, zədələnməsi,” sözləri əlavə edilsin;

2.2. 2-ci maddənin 1-ci və 3-cü hissələri aşağıdakı redaksiyada verilsin:

“1. Əhali və ətraf mühit üçün təhlükə yaradan (Əlavə 1-də göstərilən) təhlükəli maddələrin əldə olunması, hazırlanması, emalı, daşınması, istifadəsi və ləğvi ilə məşğul olan, həmçinin radioaktiv və ionlaşdırıcı şüa mənbələrinə, partlayış və digər qəza təhlükəli tikililərə, qurğulara və avadanlıqlara malik istehsal, təchizat, nəqliyyat və sosial təyinatlı obyektlər təhlükə potensiallı obyektlər hesab edilir.”;

“3. Təhlükə potensiallı obyektlər vahid dövlət reyestrində qeydiyyata alınmalıdır. Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.”.

**Maddə 3.** “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4,

maddə 632 (Cild I); 2024, № 6 (I kitab), maddə 631, № 7, maddələr 747, 751, № 8, maddə 933; Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 120-VIIQD nömrəli Qanunu) 3 nömrəli əlavə – “Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı”nın 1-ci maddəsinə “dövlət” sözündən əvvəl “vahid” sözü əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 fevral 2025-ci il
№ 139-VIIQD